# Milli terminoloji düşüncə və folklor: dilin daxili mənbələrinə dönüş

**Terminologiyanın inkişafında milli dil düşüncəsinin əsas götürülməsi dilin öz daxili yaradıcılıq mexanizmlərinə güvənmək deməkdir. Müasir elmi diskursda terminlərin böyük hissəsi xarici dillərdən birbaşa alınma yolu ilə formalaşır. Bu proses qaçılmazdır, lakin problem terminoloji sistemin milli dilin semantik və struktur imkanları hesabına deyil, yad modellərin mexaniki köçürülməsi əsasında qurulması zamanı yaranır. Məhz bu nöqtədə folklor mühüm və çox zaman lazımi qədər qiymətləndirilməyən mənbə kimi ön plana çıxır.**



Folklor dili terminoloji baxımdan elmi görünməsə də, əslində anlayış yaratma mexanizmlərinin ən təbii modelini özündə saxlayır: "Folklor mətnlərində anlayışların adlandırılması prosesi əsasən onların funksional mahiyyətinə söykənir. Burada termin xarakterli söz və ifadələr izaha ehtiyac duymadan, birbaşa gördüyü işi və ya icra etdiyi təsiri bildirir. Bu cür adlandırma modeli anlayışla onun məzmunu arasında təbii və şəffaf əlaqə yaradır, nəticədə söz həm informativ, həm də yaddaqalan olur. Belə funksional adlandırma prinsipi terminologiya üçün son dərəcə səmərəli mexanizm hesab edilə bilər. Məsələn, folklor mətnlərində hadisələr və anlayışlar çox vaxt onların funksiyasına və təsir gücünə görə adlandırılır: "yol kəsən", "can alan", "dil bağlayan", "uğur gətirən", "göz dəyməsi". Bu tip adlandırmalar anlayışın mahiyyətini izah etmədən, onu birbaşa gördüyü iş vasitəsilə təqdim edir və sözlə məna arasında təbii uyğunluq yaradır. Folklor mətnlərindəki "bərəkət gətirən", "ruhu çağıran", "yol göstərən", "can qoruyan", "uğur açan" kimi ifadələr də eyni adlandırma məntiqinə söykənir. Bu söz birləşmələri anlayışın abstrakt təsvirindən çox, onun real funksiyasını ön plana çəkir və məna baxımından dinamik dil vahidləri yaradır. Belə adlandırmalar dilin semantik elastikliyini və obrazlı təfəkkür imkanlarını açıq şəkildə nümayiş etdirir. Eyni zamanda, folklorda insan xarakterini və davranış modelini ifadə edən "ağzıdualı", "sözü kəsərli", "əliaçıq", "gözütox", "ürəyi geniş" kimi ifadələr də terminoloji düşüncə baxımından diqqətəlayiqdir. Bu tip ifadələr anlayışı psixoloji və sosial funksiyası ilə təqdim edir və milli dilin kateqoriyalaşdırma mexanizmini aydın şəkildə ortaya qoyur.

Milli terminoloji düşüncə folklorun bu təcrübəsindən bəhrələnməlidir. Folklor dili göstərir ki, anlayış yaratmaq üçün mütləq xarici modelə ehtiyac yoxdur, dilin öz daxili söz yaradıcılığı imkanları, semantik genişlənmə və metaforik düşüncə mexanizmləri kifayət qədər zəngindir. Bu baxımdan folklor terminologiya üçün canlı laboratoriya rolunu oynaya bilər. Ana dilinin inkişafında milli dil düşüncəsinin əsas götürülməsi məsələsi Prezident İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley yığıncağında etdiyi proqram xarakterli çıxışında da xüsusi yer tutub. Prezidentin ana dili ilə bağlı fikirləri bu il yanvarın 5-də yerli televiziya kanallarına verdiyi müsahibədə də davam etdirilib. Həmin müsahibədə dilin saflığının qorunması, lazımsız alınma sözlərin istifadə olunmaması və milli düşüncə sisteminə uyğun ifadə vasitələrinin seçilməsi məsələləri ön plana çəkilib. Bu baxımdan termin anlayışı yalnız elmi texniki kateqoriya kimi deyil, milli şüurun və dil yaddaşının bir hissəsi qəbul edilməlidir.

Folklor mətnlərində anlayışların funksiyaya, keyfiyyətə və obrazlı təfəkkürə əsaslanması milli termin yaradıcılığı üçün mühüm model təqdim edir. Folklor təfəkkürünün terminoloji potensialı, xüsusilə humanitar elmlər, sosial sahələr və mədəniyyətlə əlaqəli disiplinlər üçün əvəzsiz mənbədir. Burada termin yalnız anlayışı ifadə etmir, eyni zamanda, milli dünyagörüşü daşıyır. Bu isə elmin milli zəmin üzərində inkişafını təmin edən əsas şərtlərdən biridir. Belə demək olar ki, terminologiyanın milli əsasda inkişafı folklordan uzaq düşünülə bilməz. Folklor dili yalnız keçmişin poetik mirası deyil, milli terminoloji təfəkkürün genetik kodudur. Bu kod əsasında formalaşan terminoloji sistem isə elmi dəqiqliklə yanaşı, məzmunun aydın qavranılmasını təmin edir.

**Səadət İBRAHİMLİ**
**AMEA Folklor İnstitutunun elmi işçisi**

Elm .- 2026.- 13 fevral (№ 6).- S.6.